# Özəl sektorun inkişafı dövlətin diqqət mərkəzindədir

**Bu gun ölkə Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın çoxşaxəli və hərtərəfli inkişafına, milli maraqların maksimum dərəcədə qorunmasına xidmət edir. Azərbaycanın konseptual sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən müxtəlif sahə və istiqamətləri əhatə edən dövlət proqramları, köklü islahatlar və irimiqyaslı infrastruktur layihələri nəinki bu gün üçün, eləcə də gələcək dövr üçün möhkəm təməlin yaradılmasına, ölkəmizin qüdrətinin artmasına, xalqın həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına yönəldilmişdir. Son illər əhalinin etibarlı sosial müdafiəsinin, habelə vətəndaşların yüksək rifah halının təmini istiqamətində həyata keçirilən ardıcıl tədbirlər respublikamızın milli inkişaf modelinin sosialyönümlü olduğunu bir daha təsdiqləyir.**

Ölkə iqtisadiyyatının sürətli inkişaf dinamikası və çoxşaxəliliyi uğurlarımızı şərtləndirən vacib amillərdəndir. Ölkə rəhbərinin xüsusi qeyd etdiyi kimi, bu istiqamətdə ən önəmlisi ondan ibarətdir ki, məhz qeyri-neft sektoru artan templərlə inkişafdadır və bu da yürüdülən siyasətin nəticəsidir. Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması məqsədilə reallaşdırılan islahatlar ölkəmizin neftdən asılılığını azaltmaqla yanaşı, yoxsulluq səviyyəsinin minimuma enməsinə, əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə imkan vermişdir. Uğurla gerçəkləşdirilən iqtisadi strategiya respublikamızın regionda analoqu olmayan inkişaf mərhələsinə qədəm qoymasına gətirib çıxarıbdır. Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, xarici investisiyaların daha çox qeyri-neft sektoruna yönəldilməsi, əlverişli sahibkarlıq və münbit biznes mühitinin təmin edilməsi cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyasının ana xətti kimi diqqəti çəkir.

Mübaliğəsiz demək olar ki, bu gün qeyri-neft sektorunun, özəl bölmənin və sahibkarlığın inkişafı dövlətimizin xüsusi diqqət mərkəzindədir. Azərbaycanın iqtisadi inkişafını xarakterizə edən ən mühüm cəhətlərdən biri ölkəmizdə məhz güclü sahibkarlar sinfinin formalaşmasıdır. Hazırda Azərbaycanda ümumi daxili məhsul istehsalında özəl sektorun xüsusi çəkisi olduqca aydın hiss olunur, iqtisadi artımın təminatında sahibkarlar sinfinin rolu və mövqeyi davamlı şəkildə güclənir.

Özəl sektorun inkişafına dair çox əhəmiyyətli proqramlar qəbul edilmiş, sahibkarların normal və sərbəst fəaliyyəti üçün mühüm fərmanlar imzalanmışdır. Ölkə başçısının vurğuladığı kimi, Azərbaycanda bu gün özəl sektorda fəaliyyət göstərən şirkətlər güclənir, dövlət də onlara öz dəstəyini göstərir. İş adamları, sahibkarlar, onların öhdəsinə düşən bütün funksiyaları yerinə yetirməkdə Azərbaycan dövlətinin dəstəyinə arxalanırlar.

Dövlət başçısı cənab İlham Əliyev iş adamlarına müraciətlə demişdir: “İş adamları, dövlətin bütün yerli icra orqanları–hamımız birgə işləməliyik. Əlbəttə ki, təbiidir ki, bütün ölkələrdə belədir, iş adamları öz bizneslərini haqqında düşünməli, biznesi inkişaf etdirməlidirlər. Eyni zamanda, imkan olanda çətin vəziyyətdə yaşayanlara da əl uzatmalıdırlar. Mən belə biznesi, iş adamlarını təqdir edirəm və sizi də bu işlərə çağırıram. Sizə deyə bilərəm ki, mən bundan sonra da ölkədə biznesin inkişafı üçün əlimdən gələni edəcək və bütün lazımi tədbirləri görəcəyəm”.

Bütün bunlar Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasında sahibkarlığın rol və yerinin nə qədər uzaqgörənliklə və düzgün şəkildə müəyyən olunduğunu qabarıq şəkildə nümayiş etdirir. Dövlət tərəfindən sahibkarlığın inkişafına yaradılan şərait və verilən güclü dəstək, eyni zamanda həyata keçirilən dərin islahatlar bundan sonra da sahibkarlıq təsərrüfatlarının ölkə iqtisadiyyatının yüksəlişində mühüm rol oynamasına möhkəm bazis yaradıb. Bu baxımdan ölkə sahibkarlarının da üzərinə böyük vəzifə və məsuliyyət düşür. Dövlət isə öz diqqət və qayğısını əsirgəmir, iş adamları və sahibkarlara lazımi vəsait və güzəştli kreditlər verir. Artıq bu işlər görülür. Təbii ki, sahibkarların öz maliyyə vəsaitləri, özəl bankların imkanlarının genişlənməsi və digər amillər də Azərbaycan iqtisadiyyatının inkişafına çox müsbət təsir göstərəcəkdir. Əlbəttə ki, bü gün bunlar ölkədə sahibkarlıq və investisiya mühitinin tənzimlənməsinə, bu sahənin inkişafına təkan verərək, həm də hüquqi bazasının güclənməsinə kömək edir, əhəmiyyətli keyfiyyət dəyişikliklərinə stimul yaradır.

Sahibkarlığın inkişafı ölkədəki davamlı sabitliyə, tərəqqi və demokratikləşmə prosesinin ildən-ilə daha da güclənməsinə və möhkəmlənməsinə öz layiqli töhfəsini verir, Azərbaycanın hərtərəfli inkişafının qarantına çevrilir. Halal yolla maddi imkanlarını artıran hər bir insan üçün maneəsiz və



sərhədsiz biznes mühiti yaradılır, özəl sektorun imkanları genişləndirilir.

Azərbaycan iqtisadiyyatının dinamikası bazar mexanizminin hərəkətverici qüvvəsi hesab edilən sahibkarlığın inkişafı ilə uzlaşdırılır. Təcrübə göstərir ki, infrastrukturun yeniləşməsi, yeni iş yerlərinin açılması, rəqabət qabiliyyətli məhsul istehsalının artırılması, bir sözlə əsaslı iqtisadi islahatların aparılması ölkədə əlverişli biznes mühitinin yaradılmasından daha çox asılıdır.

Azad sahibkarlığın inkişafında ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə başlayan yeni mərhələ sahibkarlar ordusunun milli iqtisadiyyatda rolunu daha da artırıbdır. Bu gün ölkəmizdə sahibkarlığın inkişafına xüsusi diqqət və qayğı göstərilir, bu istiqamətdə kompleks dövlət dəstəyi tədbirləri davam etdirilir. Ölkə prezidenti cənab İlham Əliyev çıxışlarının birində demişdir: “Sahibkarlığın inkişafı Azərbaycanda daim diqqət mərkəzində olmalıdır. Bildiyiniz kimi, biz güzəştlər edirik, fermerlərə subsidiyalar, güzəştli şərtlərlə yanacaq və gübrə verilir. Təkcə əkin üçün indi yeni şərair yaradılır. Digər məsələlər öz həllini tapır. Sahibkarlığa Milli Kömək Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlər verilir. İndi təkliflər var ki, faiz dərəcələrini bir az da aşağı salaq. Mən bunu dəstəkləyirəm ki, fermerlər, iş adamları daha da rahat işləsinlər, daha da böyük gəlir əldə etsinlər. Yəni, dövlət çalışır ki, bu məsələ daim diqqət mərkəzində qalsın. Məhz bunun nəticəsidir ki bu gun Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranıb”.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 3 mart 2014-cü il tarixdə “Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” fərman imzalamışdır. Fərman sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının, bu sahənin inkişafına verilən böyük önəmin, özəl bölməyə dövlət dəstəyi tədbirlərinin ardıcıllığının göstəricisi, sahibkarlığın inkişafının yeni mərhələsinin



hüquqi əsaslarını özündə əks etdirən mühüm konseptual sənəddir. Sənəddə aidiyyəti üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin “bir pəncərə” prinsipinə uyğun olaraq elektron qeydiyyatı, eləcə də tikintiyə icazələrin verilməsi sahəsində prosedur və müddətlərin azaldılması, kreditlərin verilməsi prosesinə təsir göstərən təsisatların fəaliyyətinin təkmilləşdirilməsi üçün müvafiq təkliflərin hazırlanması tapşırılmışdır.

Hər bir ölkənin davamlı və sabit inkişafını şərtləndirən mühüm amillərdən biri sahibkarlığın inkişafı, iş adamlarının fəaliyyəti üçün normal şəraitin yaradılmasıdır. Müstəqil Azərbaycanın iqtisadi sahədə keçid dövrünü uğurla başa vuraraq ictimai həyatın bütün sahələrində davamlı yüksəlişə nail olması, qlobal böhran şəraitində qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləməsi də ilk növbədə, bu sahəyə göstərilən qayğının nəticəsidir. Ümumilikdə götürüldükdə, deyə bilərik ki, xüsusən son illərdə özəl sektorun, azad sahibkarlığın inkişafı üçün dövlət səviyyəsində çox böyük işlər görülüb. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlar, qanunlar, dövlət proqramları azad sahibkarlığın inkişafına təkan vermiş, qeyri-neft sektorunun inkişafını stimullaşdırmışdır. Həqiqətən, son illərdə Azərbaycan iqtisadiyyatının neft sektorundan asılılığının azalması, yeni zavod və fabriklərin istifadəyə verilməsi, işsizliyin aradan qaldırılması və sosialyönümlü müxtəlif problemlərin yoluna qoyulması azad sahibkarlığın inkişafı ilə əhəmiyyətli dərəcədə bağlı olmuşdur. Hazırkı mərhələdə ölkə iqtisadiyyatının yenidən qurulması sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsi azad sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, bu sektorun ölkənin sosial-iqtisadi problemlərinin həllində rolunun gücləndirilməsi, onun fəaliyyətinin ölkə iqtisadiyyatının inkişafı tələblərinə daha da uyğunlaşdırılmasını və s. tələb edir.

Dünya iqtisadi məkanının bir parçası olan Azərbaycan dünyaya inteqrasiya prosesinin sürətləndirilməsi istiqamətində ardıcıl addımlar atır. Qlobal regional layihələrin həyata keçirilməsi, iqtisadiyyatımızın şaxələndirilməsi və azad sahibkarlığa dövlət dəstəyi yolu ilə qeyri-neft sektorunun davamlı inkişafı ölkəmizin hərtərəfli tərəqqisini, iqtisadi müstəqilliyini tam şəkildə təmin edir. Bu gün neftdən gələn gəlirlər hesabına regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi və qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılması istiqamətində düşünülmüş strategiya həyata keçirən Azərbaycan hökuməti bu sahədə mühüm nailiyyətlərə imza atmışdır. Heç də təsadüfi deyil ki, sosial-iqtisadi inkişafda keyfiyyətcə yeni mərhələ kimi dəyərləndirilən son on bir il həm də sahibkarlar ordusunun milli iqtisadiyyatın aparıcı təbəqəsi kimi önə çıxması ilə səciyyəvidir. 2004-cü ildən həyata keçirilən regional inkişaf dövlət proqramlarında biznes mühitinin yaxşılaşdırılması ilə bağlı kompleks tədbirlərin əksini tapması da təsadüfi olmayıb, bölgələrin tərəqqisi prosesində özəl sektorun imkanlarını səfərbər etmək, sosial xarakterli mərhələlərin həllində sahibkarların fəal iştirakına nail olmaq istəyindən irəli gəlmişdir. Ötən illərdə həyata keçirilmiş regional inkişaf proqramları respublikamızın regionlarında yerli və azad sahibkarlığın, yeni istehsal və emal müəssisələrinin açılmasına, işsizlik və yoxsulluq probleminin əsaslı dərəcədə həllinə ciddi təkan vermişdir. Ötən illərdə kiçik və orta sahibkarlığın güzəştli kreditlərlə maliyyələşdirilməsi, sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan problemlərin həlli məqsədilə yeni mexanizmlər tətbiq edilmişdir.

Ötən illərdə olduğu kimi, dövlətimiz bundan sonra da azad sahibkarlığın, qeyri-neft sektorunun inkişafına öz dəstəyini verəcəkdir.

**Rauf ŞİRƏLİYEV,**
**“Kəngərli” firmasının baş direktoru.**